**Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının tabeliyində Nəqliyyat və Texniki-Təminat İdarəsinin yaradılması haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI[1]

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq və Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının tabeliyində Nəqliyyat və Texniki-Təminat İdarəsi yaradılsın.

2. Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasına tapşırılsın ki, Nəqliyyat və Texniki-Təminat İdarəsinin əsasnaməsini və strukturunu təsdiq etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu qərarın 1-ci hissəsi ilə yaradılan idarənin saxlanılması üçün Azərbaycan Respublikasının dövlət büdcəsindən müvafiq vəsaitin ayrılmasını təmin etsin.

4. Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasına və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu qərardan irəli gələn digər məsələləri həll etsinlər.

5. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikası Baş nazirinin**
**birinci müavini Yaqub Eyyubov**

Bakı şəhəri, 4 aprel 2013-cü il
57

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

**1.** 19 noyabr 2018-ci il tarixli **491** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 23 noyabr 2018-ci il, 264, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2441**)

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

-

---

[1] 19 noyabr 2018-ci il tarixli **491** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 23 noyabr 2018-ci il, 264, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2441**) ilə ləğv edilmişdir.